Xanımana Əlibəyli

Ağ çəmən



Azərbaycan Dövlət Nəşriyyatı
Bakı 1963

Xanımana Əlibəyli istedadlı uşaq şairidir. Nəşriyyatımız onun bu vaxta qədər “Balaca həkim”, “Dovşanın ad günü”, “Meşə həkimi”, “Novruz və Murtuz”, “İşləməyən dişləməz” kitablarını buraxmışdır. Müəllif “Ağ çəmən” kitabına yeni şeirlərini daxil etmişdir. “Ağ çəmən"də şair uşaqların zəhmətə olan meylini həvəslə qələmə almışdır.



Ağ çəmən

(poema)

„Güllər” bir ağ çəməndə
Ucaltdı öz səsini.
Külək gətirdi kəndə
Onların nəğməsini.
Heç görmüsüzmü, ağ gül
Nəğmə desin bir dəfə?
Oxusun alyanaq gül,
Səs düşsün hər tərəfə.
Bu, nağıldır elə bil,—
Qoca sehrkar qarı
Ağ güllərə verib dil,
Ovsunlayıb onları.
Birdən yağsa qar-yağış,
Qaçırlar evə sarı.
Məktəblilər yaz və qış
Bəsləyirlər onları.
Heç qoyarlarmı batsın
“Güllər“ içində tozun.
Qoy böyüyüb boy atsın
Məhsulları da artsın.
Dağların başı haça,
Üzərində günəş var,
Bu səhər qaça-qaça,
Hara gedir uşaqlar?
Ötüb yaşıl ləkləri,
Gedirlər “Ağ çəmən”ə.
Qızların ətəkləri
Şehdən islanıb yenə.
Uşaqları görəntək
Ağ güllər qanad açdı,
„Qaq-qaq, qaq-qaq“ edərək
Onlara sarı qaçdı.
Bir gümüş gül banladı:



Quqquluqu uuuu,—
Onun xoruzdur adı.
Sinəsini tutdu dik,
Dedi: biz gül deyilik.
Nə süfrəni bəzərik,
Nə döşlərdə gəzərik.
Sevimlisiyik elin,
Çox da yoxdur ətrimiz.
Briqadir Qaratelin
Yanında var xətrimiz.

— Bizim sizsiz, uşaqlar,
Bir günümüz olmasın.
Ancaq deyin ki, Sərdar
Quyruğumu yolmasın...
Sevincdən açıb qanad
Qazlar çığırdı: qa! qa!
Çünki gördülər Murad,
Gəlmişdir otarmağa.
O dedi ki, sıraya
Bir-bir durun, qazlarım,
Aparım sizi çaya,
Uzunburun qazlarım.

Guya qazlar bilir dil,—
Qulaq asıb Murada;
Düzüldülər, elə bil
Gedirdilər parada.
Çaya lap bir az qalıb,
Bax, suları səslənir.
Qazlarsa qanad çalıb,
Çimməyə həvəslənir.
Çay axdı, axdı, axdı...
Qazlar isə bu ara
Boylanıb göyə baxdı,
Səs-küy düşdü sulara.
Qopdu çığırtı səsi,
Göydən endi qapqara
Çalağanın kölgəsi
Mavi rəngli sulara.
Qabaqdakı iri qaz
Elə bil ağ qayıqdır,
Üzür sularda, qorxmaz,—
Bilir, Murad sayıqdır...
Gözünü döyə-döyə,
Qazlar durub yan-yanı,
Boylanırdılar göyə,
Görsünlər ki, o hanı?
Səs aldı göyü, yeri
Murad çalan kimi fit;
Çalağan döndü geri,
Qazlarsa oldu sakit.

Qızıl günəş ucalır,
İsidir sünbülləri,
Qırmızı rəngə çalır
"Ağ çəmən"in „gülləri".
Yuyunurlar çəhrayı

Şəfəqlərdə toyuqlar.
Onlar xoşlamır çayı,
Suya düşsə soyuqlar.
Su daşıyırlar hinə
Arxdan Aybəniz, Mina.
Qızların döşəməni
Yumağa var həvəsi.
Birdən-birə çəməni
Basdı qaqqıltı səsi.
Qaq-qaq-qaq-qaq,
Qaq-qaq-qaq-qaq...
Qızlar qaçdı çəmənə
— Görəsən nə var yenə?
Bir toyuq vermir aman,
Qaqqıldayaraq yaman
Vurnuxur sağa-sola,
İtiribdir özünü,
Girdi bir qalın kola
Qıya-qıya gözünü.
Sərdar tez çölə qaçdı,
O, quşları sevirdi.
Bir xoruz qanad açdı,
Su qabını çevirdi.
Qazlar verdi səs-səsə.
Qorxudan əsə-əsə,
Çağıraraq qaar-qaar-qaar,
Göyə uçdu qarğalar.
„Cip-cip“ çağırdı Humay,
Baxan olmadı qıza.
Toyuqlar saldı haray
Verib ağız-ağıza...
İtlər birdən hürüşdü,
Yaman vəlvələ düşdü.
Baş alıb qaçdı, dərə
Uzunu xoruz, fərə.
Humay dedi: — Tez gəlin,
Dən tökmüşəm axura
Yeyin, için, dincəlin,
Düşdüz çala-çuxura.
— Qoça xoruz, bura gəl!
Nə olmuşdur ən əvvəl
Hay salan o toyuğa?
Yoxsa ki, bərk soyuğa
Verib özünü gecə,
Çığırmaz becə-becə.
Qoca xoruz gözünü,
Qalmışdı döyə-döyə
Koldan çıxdı özünü
Bir toyuq öyə-öyə.
Silkələndi bir qədər
Dedi: – Batmışam toza,
Hay salmamışam hədər,
Axı bizim sovxoza
Qaq-qaq-qaq-qaq bu gündən
Yumurta verirəm mən.

Quşların uzun-uzun
Taxta dən qabları var.
Nahar edir xoruzun
Ətrafında toyuqlar.
Yüyürdü neçə-neçə
Kəkilli xoruz-beçə:
— Bişmişə bax, bişmişə!..
Plov, tava kababı.
Dimdiklər düşdü işə,
Tıqqıldadı dən qabı.
„Tıq-tıq, tıq-tıq, tıq, tıq, tıq “
Yağır elə bil dolu.
„Tıq-tıq-tıq“ döyür damı,
Küçədə asfalt yolu,
Evlərə qaçır hamı.
Cip-cip-cip salıb haray,
O kimdir gətirdi pay?
Quşlar görüb Solmazı,
Ağ xalatlı aşpazı,
Tanıdılar o saat.
Əlində vardı salat.
Durub ağzında yolun,
Dedi: – Getməyin hinə,
İndi də qonaq olun
Ləzzətli vitaminə.
Quşlar bir xeyli yedi,
Onun tərəvəzindən,
Bir toyuq „sağ ol” dedi

Hamının əvəzindən.
Yenə də "Ağ çəmən"ə,
Axşam sərini düşüb.
Sərçələr qonub dənə,
„Gümüş güllər" büzüşüb.
İsidib sünbülləri
Günəş tarlada batdı.
"Ağ çəmən"in "güllər"i,
Hində yığışdı yatdı.
İşləyərək o ki var,
Evə getdi uşaqlar.
İstədi layla çalsın:
Banladı hindən xoruz
Quqquluqu u u u...
Gecəniz xeyrə qalsın,
Şirin olsun yuxunuz.

Ağrımasın qolları

Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq.

M. Ə. Sabir.

Dərsə gedən bir uşaq,
Səndən bir söz soruşaq:
—Nə durmusan bu tində?
Heç səndən çıxmayan iş!
Məktəbin həyətində,
Yoldaşlarınla gəziş.
— Yolu dönəndə birdən
Müəllimi gördüm mən.
Onu çox sevirik biz,
Yenə səhər çağında
Sinif dəftərlərimiz,
Doludur qucağında.
Qoymaram daşısın tək,
Uzun-uzun yolları.
Edərəm ona kömək,
Ağrımasın qolları.

Ayran daşıyan

Nəfəsi çox təng olur,
Hey tələsir bir oğlan,
— Çiynində səhəng olur,
İçində sərin ayran.

O hara qoyub gedir
Gömgöy bağı, həyəti?
Bu gün qırx dərəcədir
Havanın hərarəti.

Oğlan çölə düz nahar
Vaxtı gəlib yetişir.
Yanaşıb kolxozçular
Bumbuz ayrandan içir.

İçilir sərin ayran,
O, səhəngi boş gəlir.
Baxıram heyran-heyran,
O, mənə çox xoş gəlir.

Yaz gələndə

Az qalmışdır axşama,
Qucaqlayıb qolunu,
Gözləyir cırcırama
Balasının yolunu.
— Bəlkə, məni incidir,
Bu oğlum bilə-bilə?
O, yaylığını didir,
Yaş tökür gilə-gilə.
Çox çağırır adını,
Deyir: – Qırıblar, əlbət,

Bant kimi qanadını,
Yoxdur canında qüvvət.
Oğlu uçub „otağa“,
Uzadır əllərini,
O durur oxşamağa,
Ananın tellərini,
Deyir: – Danlama məni,
Ana, axı, gəlib yaz,
Yaşıl çölü, çəməni
Uçub dolaşdım bir az.

Səndəl

Baba öz nəvəsinə
Qırmızı səndəl aldı.
Səndəlin həvəsinə
Nəvə oynadı, çaldı.
Axşam onu yağladı.
Qoyub çəkmə qabına,
Qapağını bağladı,
Qoydu öz dolabına.
Ertəsi gün çarpayı

Altında yatdı səndəl,
Palçıqlıydı bir tayı,
Onu silmədi tənbəl.
Üçüncü gün küçədə,
Səndəllər olmuşdu yaş,
Didirdi gölməçədə
Onları bir Alabaş.



Müqəvva

Atam öz pencəyindən
Düzəldib bir müqəvva,
Tərpənir yaz yelindən,
İçinə dolur hava.

Elə bil ki, var canı.
Sanki hər şeyi duyur.
Yellənərək bostanı
Qurddan, quşdan qoruyur.

Bir gün „cik-cik“ səsilə
Dolmuş idi müqəvva,
Sən demə yaxasında —
Sərçə salıbmış yuva.

Parovoz

O, yollarda yaşayır,
Basır onu tüstü, toz.
Bakıdan neft daşıyır
Şəhərlərə parovoz.
Bağırır: puf-puf-puf-puf,
Nə yaman istidir, uf!
Gümüş rəngli buxardır

Onun isti nəfəsi;
Qəribə fiti vardır,
Aləmi basır səsi.
Qışda çöldə yaşayır,—
Var odu, hərarəti,
İftixarla daşıyır
O, qiymətli sərvəti.

Atəşböcəyi

Bir gecə, gördüm qumun
Üstündə par-par yanır,
İndi mənim ovcumun
İçində işıqlanır.
Gəzir o baş-bu başa.

Dedim: qutuda yaşa,
Bax, bu da sənin qutun...
Dərərəm sənə tutun
Yamyaşıl yarpağını,
Söndürmə çırağını!

“Gümüş” toyuq

Başında var ağ kəkil,
“Gümüş” toyuqdur adı.
O, sizin üçün bu il,
Gör nə çox yumurtladı.

Yumurta qalaq-qalaq
Yeşiyə dolmuş olsun.
Yeyin, dadlı qayğanaq
Canınıza nuş olsun!

Raket

Raket düzəltdi Rəfi—
Qalxsın kosmik fəzaya,
Dolansın hər tərəfi,
Baxsın ulduza, aya.

Özü raketə mindi,
Oturtdu ağ quzunu.
Quzu baxıb sevindi,
Mələdi yol uzunu.

Şəngülümün nağılı

Şəngülün nağılını
Oxuyantək Qərənfil,
İtirərək ağlını
Çəpiş oldu elə bil;
Guya qurd onu qovdu,
O saldı çığır-bağır.
Gah gözlərini ovdu,

Mələdi fağır-fağır.
Böyük bacısı Gülnaz
Dedi: — Sakit ol bir az!
Ana keçi, görəsən,
Hardadır... tez gələydi...
Bu "çəpiş"in əlindən
Canımız dincələydi.

İş və söz

İş möhkəmlikdə bir dağ,
Bir polad, ya qurğuşun.
Söz çox yüngüldür ancaq,
Bir tükü, qədər quşun.

Gah şirin, gah acıdır,
İşlə söz cüt bacıdır.
Söz işsiz dolansa tək,
Onu aparar külək.

Ulduz

Mənə gecələr baxın,
Səhər oldu yatıram,
Günəş çıxana yaxın,
Göy üzündə batıram.

Mən dənizdə çalışan,
Hər zəhmətə alışan,
Neftçilərə baxıram,
Xəzər üstə axıram.

Neylüfər

Evi — gözəl bir hovuz,
İçi dolu soyuq su,
Atlaz yastığı bumbuz,
Necə gəlir yuxusu?
Axşam kölgəsi düşüb,
Görə bilmədim onu.

Neylüfərim büzüşüb,
Başqa rəng olub donu.
Bürüyüb yaşıl ipək
Yarpağına özünü,
Laylalar çalıb külək,
O da yumub gözünü.

Dəvə

O oxşamır qoyuna,
Əlin çatmaz boyuna.
Gərək belini əyə.
Sən minəsən dəvəyə.

Kimin işidir?

Görəsən, gecə vaxtı
Bostanda kim işlədi?
Gəzib qarpıza baxdı,
Kələmləri dişlədi.
Şirin kökləri kəsdi,
Bəs nə üçün tələsdi?

Tökdü moruq koluna,
Düzəldi öz yoluna.
O qorxdu, əsdi bığı,
Kökün ən dəymişidir
Özünə topladığı,
Bu, dovşanın işidir.



Qaz

Özünü çəkə-çəkə
Həyətdə nə gəzirsən?
Elə girirsən ləkə,
Güllərimi əzirsən.
Çəkmən də uzunboğaz...
Əcəb qırmızı rəngdir.

Gəl gölə gedək, a qaz,
Gör ora nə qəşəngdir.
Sən gedirsən dümbədüz
Cərgəsində qazların.
Gölə çatdıq, atıl üz
Sularda narın-narın.

İşgüzar ulaq

Ulağa bax, ulağa,
Axşamacan görür iş.
Xurcunda hər gün bağa,
Daşıyır qarpız, yemiş.

O yeriyir gözünü
İstidən yuma-yuma,
Güclə çəkir özünü,
Dizəcən girir quma.

Pomidor

Pomidor lap yetişib
Elə bil ordu şişib,
Sevirsən pomidoru,
Onu qurd-quşdan qoru.

Qırmızı al yanağı,
Gipgirdə, hamar-hamar
Yedin günortaçağı,
Dedin: əcəb dadı var!

İlk yazı

Qələmlə səliqəli
Yazmaq öyrənirəm mən.
Adamın əsir əli,
Pero səs salır hərdən.

Yazmaq necə çətindir...
Sözlər yeridi sağa.
Yazdım: top Afətindir,
Ləkə düşdü varağa.

Bala məhəbbəti

Dəryalarca olarmı
Ananın məhəbbəti?
Bir günəşə dolarmı
İstisi, hərarəti?

Geniş göylər qədərdir
Balaya məhəbbəti.
Onu ölçmək hədərdir —
Yoxdur bir nəhayəti.

Şeypurçu

Yuxu getmir gözümə,
Söz vermişəm özümə,
Hamıdan tez oyanım,
Hündür yerdə dayanım.
Şeypurumu hey çalım,

Düşərgəyə səs salım:
– Onun uca səsinə,
Məktəblilər, tez durun!
Siz səhər nəğməsinə
Qulaq asın şeypurun.

Sabir bağında

Əlində kitab-dəftər,
Axşam Sabir bağında,
Durub arxada Səftər,
Papiros damağında.
Küləklərə qatışıb
Uçur harasa tüstü.
Sakitlikdir, yatışıb
Sərçələr axşamüstü.
Səftər eşitdi bir səs,
Gəzir onun gözləri.

—Yaxında yoxdur heç kəs,
Kim deyir bu sözləri?
Ömrümdə bir heykəli
Dinən görməmişəm heç.
Ona uzanır əli,
Sabir deyir: önə keç!
Yaz məni canlandırıb
Həyat gözəl, gün gözəl...
Günlərini yandırıb
Tüstüyə döndərmə gəl!

Qoyun

Çox istidir, ay qoyun,
Qalın kürkünü soyun!
Qışda geyərsən bunu,
Mənə ver zərif yunu.

Mən ondan yaxşı əlcək
Toxuyum qardaşıma.
Baxıb fikirləşərək,
Buynuzunu qaşıma!

Naxır

Baxın, axşamsarıdır,
Kəndin bir kənarıdır.
Dərə boyu çay axır,
Enib su içir naxır.
Yollanır kəndə sarı,
Bizim ellərin varı.

Kudu

Becərmişəm kudunu,
Yay çıxanda dərərəm.
Mən onun bir pudunu,
Nənəmə göndərərəm.
Qışda bişirib yeyər,
Mənə "çox sağ ol" deyər.

Limon

Lənkəran torpağında
Becəriblər limonu,
Gəlsənə öz bağında
Sən də əkəsən onu.

Çay yaxşıca dəm alsın,
Bir dilim sal çayına.
Saxla tumunu qalsın,
Gələn bahar ayına.

Göyərib bircə ilə
Limon versin ağacın.
Suyundan gilə-gilə
Qoy içsin körpə bacın.



Şaftalı

Çıxdı günəş, o, məxmər
Tüklərini daradı,
Yetişmişdir, onu dər!
Gör nə yaxşıdır dadı.
Sizin meyvə bağında
Çox gözəldir şaftalı,
Görmüsüz yanağında
Qızaran girdə xalı?

Çiyələk

Kollarda bitdi tək-tək
Qıpqırmızı çiyələk,
Dənəsi iri-iri
Nə boydadır hər biri!
Gördüm mən onu dağda,
Dedim: – Bitmə uzaqda
Böyürtkənlə baş-başa
Bizim həyətdə yaşa.
Həyətim kol-kol oldu.
Çiyələyim bol oldu.

Albalı

Nə gözəldir meyvəsi
Albalı ağacımın.
Oxşayır hər dənəsi
Gözlərinə bacımın
Səhərlər gəzib bağı
Albalı dərdim bu yay.
Ən uca bir budağı
Sərçələrə qaldı pay.

Gavalı

Çıxarıb yaşıl donu,
Gavalı atdı onu.
Dedi: Bu bir rəng deyil,
Yaşıl rəng qəşəng deyil.
Al don gətirin indi,
Onu tezdən geyindi.
Elə ki, lap yetişdi,
O donu da dəyişdi.
Atdı bir yana alı,
Geydi göy paltarını.

Elə bil ki, gavalı
Göstərirdi varını.
Əynində sadə donu,
Məktəblilər bu bahar
Becərmişdilər onu,
Başından aşırdı bar...
Gavalı yay səhəri
Sadə məktəbliləri,
Birdən yadına saldı,
Göy paltarında qaldı.

Alma ağacı

Qollarını uzatdı,
Gəl-gəl deyir adama.
O ki belə boy atdı,
Lap çatar bizim dama.
Qorudum onun bu qış
Kökünü, budağını.

Yudu bu səhər yağış
Almanın yanağını,
Ətrinə bax, ətrinə, —
Yayılıb lap uzağa.
Alma düşsə xətrinə,
Gələrsən bizim bağa.

Göyərti

Həyətdəki torpağı
Şumlayıb, səpdim tumu,
Becərdim sarımsağı,
Vəzərini, tərxunu,

Qırmızı turpum da var...
Heç göysüz yemək olar
Qovurmanı, pitini?
Sevirəm göyərtini!

Zoğal

Bu yetişən zoğaldır.
Gör necə rəngi aldır,
Lap oxşayır mərcana.
Faydası vardır cana.

Yarpağı naxış-naxış,
Gizlədir dənəsini
Çayla içərcən bu qış
Zoğal mürəbbəsini.

Metal yığımı

Gəzirik başdan-başa
Evlərin həyətini,
Tapmışıq köhnə maşa,
Sınıq qənd kəlbətini.
Yığırıq bir həftədir
Metal qırıntıları,
Baxın, bunlar cəftədir,—
Pas tutub, olub sarı.
Qırıntı içində var
Neçə çəkic və mişar.
Sınıq saat və kompas,
Vedrələr var — içi pas.
Odur qəhvə qovuran,
Kiçik oyuncaq tası,—
Qalanıb yolda duran
Bizim əl arabası.
Həyətdən əlidolu
Çıxaraq, ötdüm yolu.
Əlimdə bir satıldı,
Qırıntıya qatıldı.

Eldar edib zarafat,
Dedi:—Mən oluram at.
Qalan yükünüz hanı?
Çəkirəm arabanı ..
Saxlayan kimi ayaq,
Araba durdu tində.
Metaldan yarandı dağ
Məktəbin həyətində.
Domna sobasında al
Rəngində atəş yanır,
Orda köhnələn metal
Əriyib cavanlanır,—
Sonra gedir dəzgaha
Yaradırlar sabaha
Maşını, traktoru,
Qazı daşıyan boru.
Bakıdan qaz kəməri
Çəkilir şəhərlərə,
Uşaqlar, gəlin bəri,
Metal toplayaq hərə.



Yan, ay tonqalımız, yan!

Yanır bir iri tonqal
Sahildə axşam üstü;
Göy təmiz, üfüqlər al,
Qalxır göylərə tüstü.
İşığında biz onun
Oturmuşuq yan-yana,
Çırtıldayırdı odun
Tonqalda yana-yana.
Göy gözlərini bizə
Dikərək baxır dəniz.
Qarmon çalır Əzizə,
Şeir deyir Aybəniz.
Hamının dostu Fatma
Oxudu gülə gülə:
– Ay külək, hələ yatma,
Tonqalımızı fülə.

Alovu rəqqasə tək
Oynatdı göydə külək,
Yan, ay tonqalımız, yan!
İşıqlansın qoy hər yan.
Hərə oxuduğundan,
Tikib toxuduğundan,
Gördüyündən danışdı...
Bu gün son toplanışdı,
Baxır payız yaxından.
– Sağ ol, ay düşərgəmiz!
Səni məktəbdə hər an
Yada salacağıq biz.
Gərək vaxt uzanaydı,—
Deyir hər oğlan, hər qız. —
Səhərəcən yanaydı
Bu gecə tonqalımız.



Timurçu

Zınq-zınq!..
Səhər çağında
Çalındı qapı zəngi,
Bir oğlan qucağında
Güllərin ən qəşəngi
İçəri daxil oldu,
Gül ətri evə doldu.
Babaya verdi oğlan
Qızılgülü, nərgizi.
—Məktəblilər adından
Təbrik edirəm sizi.
Aşsın yüzü yaşınız,
Sizin də babam kimi
Ağrımasın başınız,
Çağırmayın həkimi.
Ürəyində sevinci
Baba gülləri aldı.
—Ad günümü birinci
Uşaqlar yada saldı.
Babanı nə olsa da
Unutmazlar dünyada.
Bilirlər evdə təkdir, –
Ona kömək gərəkdir.
Səsləndi su kranı,
Oğlan tez suyu açdı.
Doldurdu qəhvədanı,
Çörək almağa qaçdı.
Dedi ki, kibrit verin
Qoy yandırım sobanı,
Qayğısı pionerin
İsindirdi babanı.
Baba qocaqdı işdə,
Neftçi olub keçmişdə.
O, neft verib Vətənə,
Bu gün işlərdi yenə.
Ancaq ayağı əsir
Hərdən addım atanda.
Baba düz yarım əsr
İşləyib Lökbatanda.
Ağartmışdır saçını,
İşləyib sevə-sevə.
Oğlan pensiyaçını
Şad edib, getdi evə.



Bol armud

Dolçalardır elə bil,
Budaqlardan sallanır.
Armud bol oldu bu il,
O, gün-gündən ballanır.

Bəsdir yellətdi külək
Onları beşiyində.
Düzülsün indi tək-tək.
Bu meyvə yeşiyində.

Təyyarə ensin yerə
Yararaq buludları.
Qoy yetsin şəhərlərə
Qubanın dadlı barı.

Halva payı

Düşərgəyə ən qabaq
Bir ana gəldi qonaq,
Gətirdi çoxlu küncüt,
Qoz-fındıq halvasını.
Şad etdi orda bir cüt
Sevimli balasını.
O, işinə tələsib,
Onlara dedi: – Gedin,
Halva yeyəndə kəsib,
Hamını qonaq edin!
Böldü halvanı biri,
Dostuna, yoldaşına,
O, biri iri-iri
Yeyirdi təkbaşına.
Çağırarıq hər kəsi
Saat düz on tamamı,
Bildirdi şeypur səsi—
Yuyunub yatdı hamı.
Bir oğlan bilsəz necə
Şirin-şirin yatırdı,
O biri bütün gecə
Dava-dərman atırdı.

Elə bil ki, o,quşdur

Elə bil ki, o, quşdur,
Düz sinəmə qonmuşdur
Vardır üç al qanadı,
Sən bilən nədir adı?
Mən onunla şəhərə
Çıxdım günorta vaxtı,
Yanımdan ötüb hərə
Bizə sevinclə baxdı.
Hər yan olmuşdu qəşəng,
Dəniz və bağ rəngbərəng
Görünürdü gözümə,
Mat qalmışdım özümə.
O heç uçmadı bağın
Ətrafında bu dəmdə,
Qızıl rəngli bayrağın
Parasıdır sinəmdə.
İndicə pionerə
Qəbul etdilər məni.
Dedim and verə-verə:
– Sevəcəyəm Vətəni!
Sevib dərsi, zəhməti,
Uçacağam düz Aya,
Vətənimin şöhrəti,
Qoy yayılsın dünyaya.

Yaşıl çadır

O, nə tut, nə alçadı,
Ələ bənzər yarpağı.
Qurub yamyaşıl çadır,
Bəzəyib bizim bağı.

Bu barlı budaqları
Becərən bir babadır.
Əncirə bax, sapsarı
Elə bil kəhrəbadır.



Gözəl qış

Şaxta baba uzaqdan
Necə gəlib məktəbə
Düşüb əldən-ayaqdan,
Gecə gəlib məktəbə.
Qarlı dağlardan aşıb,
Buzlu çaylardan keçib,
Meşələri dolaşıb,
Bizə bir yolka seçib.
Əsib külək, yağıb qar,
O, soyuqdan əsməyib,
Nə pələng, nə canavar
Qarşısını kəsməyib.
Bəzədik o yolkanı:
Asdıq qızıl ulduzu,
Atı, fili, kuklanı,
Tülkünü və xoruzu
Yolkamız, ay uşaqlar,
Görün nə gözəl oldu!
O yamyaşıl budaqlar
Oyuncaqlarla doldu.
Hər budaqda elə bil
Açdı lalə, qərənfil.
Bu asılan kəpənək
Düz qızılgülə qonub,
Gözəl bəzəkli böcək
Elə biləsən, donub.
İt boynuna lent taxıb
Pişik eşir bığını
Tülkü xoruza baxıb
Yellədir quyruğunu.
Bir az o yana itdən,
Qıza bax, nə qəşəngdir...
Paltarı təzə çitdən,
Gülləri rəngbərəngdir.

Qar yağır yavaş-yavaş,
Dovşan qırpır gözünü.
Qara batıb Alabaş,
Silkələyir özünü.
Lap üst budağa qaçıb
Zınqırovlu kəhər at,
Guya ağzını açıb
Kişnəyəcək bu saat.
Bax, evciyin damını
Buz basıb, qar yağırdı,
Şaxta baba hamını
Öz yanına çağırdı.
O verdi bizə bəxşiş,
Bir-bir boşaldı zənbil,
Sən nə gözəlsən, ay qış,
Xoş gəlmisən, təzə il!



Kitabın içindəkilər

Ağ çəmən 3
Ağrımasın qolları 6
Ayran daşıyan 7
Yaz gələndə 7
Səndəl 7
Müqəvva 8
Parovoz 8
Atəşböcəyi 8
“Gümüş” toyuq 8
Raket 9
Şəngülümün nağılı 9
İş və söz 9
Ulduz 9
Neylüfər 10
Dəvə 10
Kimin işidir? 10
Qaz 11
İşgüzar ulaq 11
Pomidor 11
İlk yazı 11
Bala məhəbbəti 12
Şeypurçu 12
Sabir bağında 12
Qoyun 12
Naxır 13
Kudu 13
Limon 13
Şaftalı 14
Çiyələk 14
Albalı 14
Gavalı 15
Alma ağacı 15
Göyərti 15
Zoğal 15
Metal yığımı 16
Yan, ay tonqalımız, yan! 17
Timurçu 18
Bol armud 19
Halva payı 19
Elə bil ki, o, quşdur 20
Yaşıl çadır 21
Gözəl qış 22